**“Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, №5, maddə 380) aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2-1. Mərkəzi icra hakimiyyəti orqanları göstərdikləri hər bir elektron xidmət üzrə ayrıca inzibati reqlamenti iki ay müddətində müəyyən etsinlər.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bir ay müddətində normativ hüquqi aktlarını bu Fərmana uyğunlaşdırsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. üç ay müddətində “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsində nəzərdə tutulmuş tapşırığın mərkəzi icra hakimiyyəti orqanları tərəfindən icrası barədə məlumatı ümumiləşdirsin və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 iyul 2012-ci il
№ 676